Əhmədzadə Arzu[93]

# ƏDƏBİ YYAT DƏRSLƏRİ NDƏ ƏYANİ Lİ K

"Həyat dərsliyi" olan ədəbiyyat vasitəsilə şagirdlərin estetik zövqü formalaşır, gənc nəsil xalqımızın qədim və zəngin ədəbiyyatının adət və ənənələri ruhunda tərbiyə olunur. Məktəbdə ədəbiyyat dərslərini tədris edən müəllim daima yeni biliklər axtarışında olmalı, şagirdlərin diqqət və marağını cəlb edəcək yeni təlim üsullarından səmərəli şəkildə istifadə etməyi bacarmalıdır. Bu təlim üsullarından biri də əyanilikdir. Əyanilik dərsin canlı, maraqlı olmasına, təlim materiallarının asanlıqla və möhkəm mənimsənilməsinə imkan verir. Əyanilik ortaya çıxan çətinlikləri şagirdlərə çatdırmaqda bir növ müəllimin işini asanlaşdırır. Məşhur sovet pedaqoqu Y.Y. Qolant deyir ki, dərsdə əyani vasitələrdən istifadə nəticəsində xarici hiss orqanlarının köməyi ilə şagirdlər konkret əşyanı, hadisə və prosesləri naturalar, ya da təsvirlərin köməyi ilə dərk edirlər.[1, s. 4]. Ümumiyyətlə, tədris olunan hər bir fənnin özünəməxsus əyani vasitələri vardır. Coğrafiyanı xəritəsiz, fizika və kimyanı müvafiq cihazlarsız, biologiyanı əlverişli şəraitdə bitkilərsiz, canlılar aləminə aid müəyyən videoçarx, fotoşəkillərsiz öyrənmək mümkün olmadığı kimi, ədəbiyyatın da tədrisində şair və yazıçıların tərcümeyi-halını əks etdirən sinxronik cədvəllər, fotoşəkillər, bədii əsərlərə aid karikaturalar, əsərlər əsasında çəkilmiş kinofilmlər olmadan dərs səmərəsiz keçər və şagirdlərdə cansıxıcı ab-hava yaradar. Şagirdlərə bədii sözün mahiyyətini, əsəri ifadəli oxumaq bacarığını aşılamaq da əyaniliyin mühüm göstəricilərindəndir. Bu zaman şagird oxuduğu mətni daha aydın başa düşür və bədii əsərin ideyasını anlayır, əsəri daha dəqiq və dol ğun təhlil etmək bacarığına yiyələnir.

Ədəbiyyatın tədrisində ən birinci əyani vasitə obrazlı sözdür. Çünki, ədəbiyyat söz sənətidir. Obrazlı söz vasitəsilə oxucunun qəlbinə sirayət edir. Müəllif məhz söz vasitəsilə duyğu və düşüncələrini oxucuya çatdırır və sözlər vasitəsilə oxucunun gözləri qarşısında canlı tablo yaradır. Şagirdlər əyani vasitələrin köməyi ilə əməli vərdişlərə yiyələnirlər. Belə ki, müəllim sinifdə rəsm sahəsində müvafiq bacarığı olan şagirdin sinif guşəsinin yaradılmasında və yaxud dərslə bağlı karikatura və illüstrasiyaların hazırlanmasında fəal şəkildə iştirakına nail olur. Müəllim bu zaman kollektiv fəaliyyət növündən də istifadə edə bilər. Məsələn, digər şagirdləri qruplaşdıraraq həmin yoldaşlarına kömək etmək üçün birgə fəaliyyətə yönləndirir. Bir qrup şagirdə mətndən müəyyən hissə seçməyi, digər qrupa yazıçı və əsər haqqında fotoşəkil və ya maraqlı məlumat toplamağı, başqa şagird qrupuna cədvəl və ya sxem tərtib etmək və s. tapşırılır. Bununla da heç bir şagird diqqətdən kənarda qalmır. Təcrübələr göstərir ki, əyani vəsaitlər təlimdə geri qalan, dərs zamanı passiv olan şagirdlərin fəallığına çox kömək edir. Əyani vəsaitlər şagirdlərin nitq bacarığının inkişafına, söz ehtiyatlarının zənginləşməsinə müsbət təsir göstərir. Hər hansı plakat, portret, karikatura və illüstrasiyaları "oxumaq" qabiliyyəti onlarda formalaşır. Onlar arasında fikir müxtəlifliyi, hər birinin ayrı-ayrı baxış tərzləri müəyyənləşir. Göstərilən illüstrasiya və karikaturalar üzərinə şagirdlərin fikrini cəmləmək üçün müəllim düşündürücü və təhlilə istiqamətlənən suallar verir. Məsələn, XI sinif ədəbiyyat dərsliyində "Cəlil Məmmədquluzadənin həyatı, yaradıcılıq yolu" mövzusunda C.Məmmədquluzadənin 25 il redaktoru olduğu "Molla Nəsrəddin" jurnalının ilk nömrəsinin (1906) üz qabığı verilmişdir. Bu karikaturada bir yanda yatmış camaat, bir yanda isə üzünü həmin ca-maata tutaraq söylənən Molla Nəsrəddin əks olunub. Müəllim bu karikaturanı göstərərək, şagirdlərə üz tutub ilk olaraq "Molla Nəsrəddin" jurnalı haqqında nə bildiklərini, jurnalın əsas qayəsi və məfkurəsinin nə olduğunu soruşur. Rəssam niyə belə rəsm çəkmiş və bu rəsmlə o hansı fikri oxu-culara çatdırmaq istəmişdi? Şagirdlər bu karikatura haqqında nə düşünür? Üz qabığı jurnalın ideyasını tam şəkildə əks etdirə bilirmi? Rəsmdə niyə camaat "yatmış" olaraq göstərilir? Niyə bu məktəbin adını "mollanəsrəddinçilər" qoymuşlar? Bu suallarla müəllim şagirdləri düşünməyə vadar edir və bir karikatura əsasında sinifdə canlanma baş verir, şagirdlərdə motivasiya yaranır. Dərs zamanı istifadə edilən əyani vəsait keçilən dərsin mövzusuna uyğun olmalıdır. Təlim materialı ilə əlaqələnməyən, mövzunun möhkəm mənimsənilməsinə kömək etməyən əyani vəsaitlər az əhəmiyyətli olur. Yersiz və lüzumsuz istifadə edilən əyani vəsait diqqəti dərsin əsas məqsədindən uzaqlaşdırır. Əyani vəsaitlər dərsin tədrisini asanlaşdırmalıdır. Müəllim dərsi planlaşdırarkən əvvəlcədən çətin mənimsənilən dərsi seçir və ona uyğun əyani vasitələr və yaxud əlavə tədbirlər müəyyənləşdirir. Məsələn, M.Füzuli, S.Ə.Şirvani, M.Ə.Sabir və başqa klassiklərin yaradıcılığı çətin mənimsənilir. Bu mövzuları keçərkən əyani vasitələrdən geniş istifadə olunmalıdır. Məsələn, müəllim M.Füzulinin "Leyli və Məcnun" əsərini tədris edərkən, həmin əsərə çəkilmiş illüstrasiyalardan, Ü.Hacıbəyovun eyniadlı operası haqqında müxtəlif vasitələrdən istifadə edə bilər. İ.M.Seçenov, İ.P.Pavlov və digər fizioloqların tədqiqatları göstərir ki, insanın hiss orqanları onun varlıqla vahid əlaqəsinin bir-biri ilə qarşılıqlı münasibətdə olan, bütövlük təşkil edən müxtəlif kanallarıdır. *Görmə duyğusu* (şəkil, sxem, cədvəl ekran, səhnə əsərinə baxış), *eşitmə duyğusu* (musiqi, çıxış, bədii söz ustasının ifası və s.), *hərəkət duyğusu* (əşyaya, onun maketinə toxunmaq) varlığın obrazlı qavranılmasına, təlim materi-alının dərindən mənimsənilməsinə imkan verir. Əyanilikdən giriş məşğələlərində, tərcümeyi-hal materiallarının öyrənilməsi,əsərin oxusu, təhlili, təkrar və ümumiləşdirmə zamanı istifadə etmək mümkündür. Ədəbiyyat dərslərində əyaniliyin əsas vasitəsi ***ədəbi əsər özü, bədii, obrazlı sözdür***. Müəllimin sənətkarın şəxsiyyəti, yaradıcılığı haqqında danışarkən istifadə etdiyi ***sitatlar, aforizmlər*** də əyanilik vasitəsidir. Unudulmamalıdır ki, ***müəllimin şəxsiyyəti, nitqi, ifadəli oxusu*** da şagirdlər üçün əyanilikdir. Bundan başqa, ***sinif lövhəsi*** də əyaniliyə xidmət edir. Lövhəyə yazılan, gözlə görünən söz-lər, terminlər, tərcümeyi-halla bağlı tarixlər, hadisələri əks etdirən cədvəllər şagirdlərin yaddaşında daha yaxşı hifz olunur. Ədəbiyyat dərslərində bədii mətni dərindən mənimsətmək üçün ***incəsənətin digər növlərindən – təsviri incəsənətin, musiqinin imkanlarından*** da səmərəli şəkildə,bəzi mövzuda istifadə etmək lazım gəlir.Orta məktəbdə ədəbiyyatın tədrisi ilə əlaqədar olaraq, əyaniliyin 3 növünü göstərmək olar: 1) bədii təsvir xarak-terli əyani vasitələr; 2) qrafik əyani vasitələr; 3) texniki

[93] *Azərbaycan Dillər Universiteti.* ahmadzada1996@gmail.com

vasitələr. [1, s. 12].***Bədii təsvir xarakterli əyanivasitələrə*** plakatlar, illüstrasiyalar, sənətkar-ların portreti, fotoşəkilləri və s. aiddir. Bu növ əyani vəsaitlər vasitəsilə şagirdlər yazıçının yaşadığı ədəbi mühit, həmin dövrün xüsusiyyətləri haqqında tam təsəvvürə malik olurlar. Bu əyani vasitələri tematik cəhətdən də qruplaşdırmaq olar. Məsələn, şifahi xalq ədəbiyyatı ilə əlaqədar əyani vasitələr, sənətkarların tərcümeyi-halı ilə bağlı əyani vasitələr, bədii əsərin mövzusu ilə bağlı əyani vasitələr. ***Qrafik əyani vasitələr*** isə çox geniş əhatəyə malikdir. Qrafik vasitələr daha çox şagirdlərin köməyi ilə hazırla-nır. Çox zaman sinif lövhəsində yazılır. Qrafik əyani vasitələrə misal olaraq, sinxronik cədvəllər, sxemlər, diaqramlar, sənətkarın məktubları, xatirələri, komiksləri göstərmək olar. Fəal təlimə əsaslanan dərsliklərdə əksər mövzulardan sonra şagirdlərin mənimsəmə səviyyəsini müəyyən edən müvafiq uyğun sxemlər verilir. Bu tapşırıqlar ya müəllimin köməyilə sinifdə həll olunur, ya da ev tapşırığı kimi evə verilir. Məsələn, hər hansı bir əsərdə istənilən obraz təhlil məqsədilə sxem əsasında verilən suallara uyğun təhlil edilir. Bu sxemdəbu obraz haqqında nə düşünürsən? Sən bu obrazın yerinə olsaydın, nə edərdin? Bu obraz nə edirdi? Bu obraza münasibətin necədir? Bu obrazda ən çox diqqətini nə cəlb etdi? və s. kimi suallar əks olunur. ***Texniki əyani vasitələr*** ədəbiyyat dərslərinin tədrisində mühüm əhəmiyyətə malikdir. İnformasiya-kommunikasiya texnologiyala-rından istifadə müasir dərsə verilən tələb kimi irəli sürülür. Təlimin texniki vasitələri üç yerə bölünür:

1. Akustik ( məktəb radio qovşağı, maqnitafon)
2. Vizual ( epidiaskop, kodoskop, proyektor )
3. Audio-vizual (televizor, video-maqnitafon, kompyuter və s.)

Hazırda ədəbiyyat müəllimləri ***televizor, video, kompyuter, proyektor,elek-tron lövhə*** kimi informasiya-kommunikasiya vasitələrindən istifadəyə daha geniş yer verir, özlərinin və şagirdlərin ***internetdən topladığı materialları, sənətkar haqqında filmlər ,verilişlər, bədii əsərin ekran, səhnə variantla-rından fraqmentləri, şəkilləri, video çəkilişləri*** dərsdə uğurla nümayiş etdi-rirlər. [2, s. 252]. Müasir şagird ənənəvi təlim üsulları ilə keçilən dərsə deyil, texniki təlim vasitələri istifadə olunan dərsə daha çox maraq göstərir. Müəllim dərs zamanı texniki əyani vasitə olaraq radio və televiziya verilişlərini nümayiş etdirə bilər. Müəllim şagirdlərə əvvəlcədən məlumat verir, verilişi diqqətlə dinləməyi, oradan lazımi qeydlər götürməyi tapşırmalıdır. Qrafik əyani vasitə olaraq sxemdən istifadə sənətkarın yaradıcılıq yolunu, tərcümeyi-halına aid xronologiyasını müəyyənləşdirməyə imkan verir. M.F.Axundovun yaradıcılıq yolunu şerləri, komediyaları, povesti, fəlsəfi məktubları kimi qruplaşdıraraq, şagirdlərə punktlara aid olan əsərləri yazmaq tapşırıla bilər. Sənətkarın həyat və yaradıcılığına aid xronologiyalar sinxronik cədvəllərdə öz əksini tapır. Adı çəkilən əyani vasitələrdən başqa onlarla vasitənin adını çəkmək olar. Ədəbiyyat dərslərinin tədrisi zamanı istifadə edilən hər bir vasitə şagirdin yaradıcı və məntiqi təfəkkürünün, dünyagörüşünün formalaşmasına kömək etməlidir.

**Ədəbiyyat:**


1. Əliyeva S. Ədəbiyyat dərdlərində əyanilikdən istifadə. Bakı: "Maarif", 1967, 80 s.
2. Həsənli B.A. Ədəbiyyatın tədrisi metodikası. Pedaqoji ali məktəblər üçün dərs vəsaiti. Bakı: "Müəllim" , 2011. 326 s.
3. Orta məktəbdə ədəbiyyat tədrisi. 2 cilddə, I cild, Bakı: "Maarif", 1966, 292 s
4. Əhmədov C. Ədəbiyyat tədrisi metodikası. Bakı: "Bakı universiteti", 2009, 239 s.
5. Hacıyev A. Ədəbiyyat dərslərində əyanilikdən istifadə: Müəllim üçün vəsait. Bakı: "Maarif", 1993, 120 s.
6. Veyisova Z. A. Fəal interaktiv təlim: müəllimlər üçün vəsait. Bakı, 2007, 171 s.



***Azar syzlə r:*** *Ə də biyyat, ə yani, ɛsul, tə lim, və sait, də rs*

*Key words: Literature, visually, method, training, funds, lesson*

*Кл юч е в ие с л о в а : л и те р а ту р а , в и з у а л ь н ый , ме то д , о б у ч е н ие , п о мо щь , у р о к*


## Xülasə


Orta məktəbdə ədəbiyyatın tədrisi zamanı əyani vasitələrdən istifadə təlimin asanlaşdırılmasına, şagirdlərin dərsi daha yaxşı mənimsəməsinə kömək olur. Bu vəsaitlər bədii təsvir xarakterli, qrafik əyani vasitələr və texniki əyani vasi-tələr olmaqla 3 növə bölünür. XXI əsrdə fəal təlimə əsaslanan dərslərdə texni- ki əyani vasitələrdən daha çox istifadə olunur. Bu vəsaitlər vasitəsilə şagirdlə- rin dərsə marağı daha da artır, onlarda motivasiya yaranır. Ümumiyyətlə, fənn müəllimi hər mövzunun tədrisi zamanı müvafiq əyani vasitə seçməklə, şagirdlərin nitq bacarığının inkişafına, söz ehtiyatlarının zənginləşməsinə şərait ya radır.


## Summary


The use of visual tools during the teaching of literature in high school helps to simplify teaching and helps students to grasp the lesson well. These tools are divided into three types: artistic illustrations, graphical visual tools and technicalvisual tools. In the twenty-first century, technical visual tools are the most used in active training based classes. By the use of these tools students are getting motivated and show significant interest towards the lesson. İn general, by providing applicable visual tools during the teaching of each subject, teachers help students to improve their vocabulary and speech abilities.



***Rəyçi: ADU-nun Azərbaycan ədəbiyyatı kafedrasının dosenti E.Mustafayeva***